

*Qurban Bayramov, ədəbiyyatşünas - tənqidçi*

# Poetik fikrin təbiiliyi...

**Sahib Əliyevin yaradıcılığı haqqında yazmaq fikrinə düşəndə, əvvəlcə onun əsərlərini, sonra isə həmin əsərlərdən bəhs edən kitabları bir də nəzərdən keçirdim. Düzünü deyim ki, onun "Bilirəm bu şeiri oxumayacaqsan" adlı bir şeiri, poeziya nöqteyi-nəzərindən yaxşı olsa da, fikir cəhətdən məni razı salmadı. Həmin şeirində şair üzünü kiməsə tutub deyir:**

**Bilirəm,**
**sən mənim bu şeirimi**
**oxumayacaqsan.**
**Necə ki oxumayırsan**
**başqa şeirlərimi.**
**Onunçün də bilməyirsən**
**şeir dünyasında**
**mənim yerimi.**

Mənə elə gəlir ki, şair özü haqqında əbəs yerə belə bədgümancasına danışır. Çünki mənə görə şairin çoxlu pərəstişkarı var və onlar onun əsərlərini həmişə sevə-sevə oxuyur, oxuduqca da mənəvi zövq alırlar. Çünki Sahibin şeirlərində ürəkləri riqqətə gətirən güclü bir lirika var. Həmin lirikaya yaxından bələd olanda, burada mənəvi dad görürsən, tam görürsən. Bu dadı və bu tamı daddıqca ruh şirinləşir, nəticədə isə şairin şeirlərindən tam razı qalırsan. Bəzən kimsə bu razılığı içində pünhan saxlaya bilmir, hansı mətbuat orqanındasa, açıq büruzə verir.

Bu dəmdə olmuş bir hadisəni yada salmaq istəyirəm. Bir dəfə ixtisasca ədəbiyyatçı olmayan bir dostum yanıma gəlmişdi. Görüşdükdən bir neçə dəqiqə sonra Sahib Əliyevin mənə verdiy seçilmiş əsərlərinin birinci cildinə gözü sataşdı.

Beləliklə də dostum kitabı götürüb apardı.

Aradan düz beş gün keçməmiş dostum kitabı gətirdi. Otağa girən kimi də dediyi ilk fikir belə oldu:

- Şeir belə olar da, oxuduqca adam ləzzət alır. Açığını deyim ki, bu şeirlərdən əsl poeziya iyi gəlir. Halal olsun Sahibə!

Əslində, Sahib Əliyev haqqında bu və ya buna bənzər təriflər çox eşitmişəm. Bəzən də bu cür tərifləri eşidəndə özüm-özümə suallarım da olub: Görəsən, niyə Sahibin şeirlərini tərifləyirlər? Çox vaxt öz sualıma özüm də cavab verməli olmuşam. Çünki Sahib şeirə olduqca məsuliyyətlə yanaşır. O, şeir üçün maraqlı mövzular tapır, şeiri, həcmcə böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq, müəyyən etdiyi süjet xəttindən kənarə çıxmağa imkan vermir. Onun şeirlərində fikir dərin olur və həmin fikir poetik bir dona bürünür. Şairin şeirlərində ürəyə yatan bir ahəng, ruhu oynadan bir musiqi var. Odur ki, şairin şeirlərində oxucunun yorulmasına imkan verməyən bir yığcamlıq hökm sürür. Yığcamlıq isə bədiliyin birinci şərtidir. Və ya görkəmli ingilis alimi H. Suitin təbirincə desək, "yığcamlıq dili qüvvətləndirir". Aydındır ki, dil nə qədər qüvvətli olsa, şeir də bir o qədər oxunaqlı olur. Sahibin şeirlərində təbilik var, şair nə yazırsa, təbii yazır, boğazdan yuxarı söz demir, saxta və süni hadisələri qələmə almır. Başlıcası isə onun xəlqiliyə ciddi fikir verməsidir. O, şeiri elə yazır ki, misra-misranı, bənd-bəndi tamamlayır. Ona görə də onun əsərlərindən misal gətirəndə, gərək ya bütöv bir bəndi, ya da bütöv bir şeiri misal gətirəsən..

Sahib Əliyev üçün mövzu qıtlığı yoxdur. O, hər şeydən yazır. Onun yaradıcılığında dünya, həyat, insan, təbiət mövzuları xüsusi yer tutur. Yazılarından bəlli olur ki, şairin içi dünyada mövcud olan təzadlarla doludur. Şeirlərində gah sevinir, gah qəmlənir, gah yaşadığı dünyadan ləzzət alır və ləzzət alanda da ruhlanır, həyata, yaşamağa daha da həvəs göstərir, gah da həyatdakı mövcud mənfiliklərə nifrət edir, haqsız sıxıntılara görə dünyanı tənqid atəşinə tutur.

Konkret misallar. "Bilmirəm" şeirində həyata küskün baxan şair yaşamaqdan, ömür sürməkdən belə imtina etmək istəyir:

**Həyat çəkir məni dara,**
**Dərddən sinəm para-para.**
**Ürəyimdə min bir yara -**
**Silə bilmirəm.**

**Ya da indi yanan şamam,**
**Şərabı içilmiş camam.**
**Əcəl yaxın, ömür tamam -**
**Ölə bilmirəm.**

Yaxşı cəhətdir ki, şair həmişə bu ovqatda olmur. Bir sıra xoş ovqatlı şeirlərində isə, şair sanki heç yuxarıda dediyimiz şeirin müəllifi deyi. Onun əksər şeirlərində sevinc və fərəh cövlan edir. Bir də görürsən ki, şair ilhamı minib sevinc atına, məhəbbətdən, sevgidən dəm vurur. Elə götürək "Görən nə gəzdirir gözündə bu eşq" şeirini:

**Ürəkdi - bağrıma basmışam onu,**
**Sevincdi - boynumdan asmışam onu.**
**Əynində ömrümün xoşbəxtlik donu,**
**Dolanır Sahibin düzündə bu eşq.**

Sahib şeir yazanda, birinci növbədə, onun həyata və insanlara verə biləcəyi töhvəni nəzərə alır. Bu töhfəni o, əsasən, oxucuda tərbiyə aşılamaqda görür. Şairə görə, hər hansı bir bədii əsər, o cümlədən, şeir insanlara tərbiyə vermirsə, onu yazmağa dəyməz. Bu amalla da, bir də görürsən, şair əlinə qələm götürüb "Ən yaxşı ənbərdi, ətirdi şeir" adlı bir şeir yazdı:

**Yox, demə bir yığın sözdü, kəlmədi,**
**Yox, demə bir yığın sətirdi şeir.**
**Şeir - bu dünyanın nazı, neməti,**
**Ən yaxşı ənbərdi, ətirdi şeir.**

Aydındır, bu şeirində şairin məqsədi şeiri, sənəti və sənətkarı təbliğ etməkdən, oxucuda sənət və sənətkara sevgi yaratmaqdan ibarətdir.

Sahibin əsərlərində insan amilinə xüsusi yer verilir. Çünki deyildiyi kimi, insan yer üzünün əşrəfidir. Başqa şairlər kimi, Sahib Əliyevə görə də, yer üzündə insandan qiymətli heç nə yoxdur. İnsan yaşadıqca kamilləşir və kamilləşdikcə həyata yeni rövnəq verir. Bu rövnəqlə də dünya daha da gözəlləşir, həyat daha da şirinləşir. Buna görə də şair öz şeirlərində insan əməyini xüsusi şövq ilə tərənnüm edir. Bu cəhətdən onun "Əsl insan", "Bir halda gəlmisən sən bu dünyaya", "El üçün yananlar", "İnsanı güldürən məhəbbət olur", "Mənim bir ağıllı tanışım vardı", "Şair xəyalında yaşayan adam", "Allahı qoruyun öz ürəyinizdə" və başqa şeirləri həqiqətən diqqəti cəlb edir. Ona görə ki, bu şeirlərdə yaxşı insan obrazları var, insanı doğru yola çağıran müraciət var.

Lakin aydındır ki, insanların hamısı eyni səviyyədə deyil. Yaxşı insanlarla yanaşı, xəbis insanlar da çoxdur. Şair belələrinin də tərbiyə olunub düz yola qayıtmasının qayğısına qalır. Belələrini tənqid etməklə, onları düz yola, əsl insan olmağa çağırır. "Əsl insan" şeirində bunun sirrini də öyrədir:

**Əsl insan əyilməz**
**Asan vara, dövlətə.**
**Könlü balıq istəsə,**
**Tez əl atar zəhmətə.**

Sahibin şeirlərində təbiət də eyni ilhamla tərənnüm edilir, məhəbbət də. Onun siyasi motivli şeirlərində həyatın dərin fəlsəfəsi var və bu fəlsəfə oxucuya çox şeyi başa düşməkdə kömək edir. Amma bütün bunlar haqqında uzun-uzadı danışmaq istəmirəm. Çünki Sahib Əliyev yaradıcılığı haqqında məndən qabaq yazan müəlliflər bunlara kifayət qədər toxunublar. Amma şairin yaradıcılığında elə cəhətlər var ki, bu cəhətləri açmaq, onun yaradıcılığını daha dərindən başa düşməkdə oxuculara yaxından kömək edə bilər. Bu cəhətlərdən biri odur ki, şair bir çox hallarda xalq arasında işlənən bəzi sözləri və ya fikirləri oxucuya olduğu kimi deyil, bədii priyomlarla, özü də dolayısı yolla çatdırır. Bu isə həm oxucunu düşündürməyə vadar edir, həm də şeiri gücləndirir. Götürək elə "Deyirəm" şeirini:

**Bu dünyanın acı vardı, toxu var,**
**Acı üçün darı dolu yuxu var...**

Oxucu istər-istəməz düşünür və düşünəndə, el arasında işlənən "ac toyuq yuxusunda darı görər" deyimi gəlib düşür yadına.

Buna bənzər bir fikrə "Zamanın" şeirində də rast gəlirik. El arasında əsnəməyin səbəbini aclığın və yuxusuzluğun boynuna yıxırlar. Biri əsnəyəndə deyirlər ki, sən ya acsan, ya da yuxusuz. Şair isə bunu öz şeirində belə ifadə edir:

**Adam sanır indi hamı zəngini,**
**Kasıbsansa, əsdirər bu, əngini...**

Və ya "Sən mənim alnıma yazılmış yazı" şeirinə diqqət yetirək. Şeirdə aşiq öz sevgilisinə müraciət edir:

**Mən mavi səmayə sığmayan günəş,**
**Sən ümman qoynuna sığışmayan su.**
**Günəç ümmanları içə bilməsə,**
**Olmaz nə yağışı, nə də dolusu.**

Bu misralarla aşiq demək istəyir ki, əzizim, mənim sənə olan məhəbbətim odlu, alovlu günəşdir. Özü də bu günəş o qədər böyükdür, əngin səmalara belə sığmır. Əslində, sənin məhəbbətin də böyüklükdə mənim məhəbbətimdən geri qalmır, o da ümmanların qoynuna belə yerləşmir.

Şair güclü sevginin qüdrətini sübut etmək üçün üzünü təbiətin bu gerçək hadisəsinə çevirir: Hamı bilir ki, yayda günəşin hərarəti o qədər güclü olur ki, ümmanlar bu gücə davam gətirməyib, buxarlanır və göylərdə buluda dönür.Sonralar isə bu bulud yenə də suya çevrilib dünyanın gərəyi olur. Yəni günəşlə su ələlə verib dünyanı çiçəkləndirirlər.

Bu və ya buna bənzər başqa ifadələri şairin "Azərbaycan bir cümlədir", "Araz axar, çağlayar", "Günəş göydə gülməsə", "Üzü dönük bu dünyada" və bir sıra başqa şeirlərində də görmək olur.

Sahibin yaradıcılığına xas olan maraqlı bir cəhəti də qeyd emək yerinə düşər. O da şairin həyatda mövcud olan iki ayrı-ayrı predmetlərdə oxşarlıq əlamətləri tapması və həmin əlamətləri şeirlərində məharətlə işlətməsidir. Bu da şeiri istər-istəməz yaraşığa gətirir və daha da qüvvətləndirir, "Bir söyüd ağacına" şeirində olduğu kimi:

**Saçların tökülüb gözünün üstə,**
**İndiki qızların telləri kimi.**

Nə gözəl bənzətmədir. Doğrudan da yazda gözəlləşən söyüd ağacının saçaqları elə sallanır ki, elə bilirsən indiki qızlar özlərini daha cazibədar göstərmək üçün yaraşıqlı tellərini səliqə ilə gözlərinin üstünə töküblər.

"Duman" şeirində isə şair bu fikri başqa cür işlədir, dağı-daşı başına götürən dumana müraciət edir:

**Tökmüsən saçını yal-yamaclara,**
**Məcnunsan, Leylimi gəzirsən, duman?**

Bu cəhətdən "Bu yeri insana bənzədə bilsək" şeiri də maraqlıdır:

**Bu yeri insana bənzədə bilsək,**
**Biz dağa bu Yerin başı deyərik.**
**Dərəyə - belinə bağlanan kəmər,**
**Qayaya - biz onun qaşı deyərik.**

Ədalət.-2017.-14 dekabr.-S.4.